PAŞA Bank

**"PAŞA BANK" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ**

**Emissiyanın ümumi həcmi 200,000,000 (iki yüz milyon) Azərbaycan manatı və 200,000,000 (iki yüz milyon) ABŞ dolları olan faizli, təminatsız, sənədsiz, adlı istiqrazların**

# BAZA EMİSSİYA PROSPEKTİ

**2024**

005376 |PT22|2

MÜNDƏRİCAT


**BƏYANAT**...3

**I XÜLASƏ**...4

Xəbərdarlıqlar...4

Emitent haqqında məlumat...5

İstiqrazlar barədə ümumi məlumat...11

Risk faktorları...13

Təklif...14

**II İstiqrazların emitenti barədə tələb olunan məlumat**...19

Emitentin auditorları barədə məlumat...19

Emitent barədə məlumat...19

Emitentin biznesinin icmalı...20

Digər təşkilatlarda iştirak...26

Tendensiyalar barədə məlumat...28

Gəlir proqnozu...29

Emitentin idarəetmə və nəzarət orqanları...29

Emitentin nizamnamə kapitalında mühüm iştirak payına malik olan səhmdarlar...34

Emitentin maliyyə məlumatları...36

Müqavilələr...43

**III Baza emisisya prospekti üzrə istiqrazlar barədə tələb olunan məlumat**...44

İstiqrazlar barədə məlumat...44

İstiqrazların buraxılışı haqqında şərtlər...45

PAŞA Bank

**BƏYANAT**

**BAZA EMİSSİYA PROSPEKTİNİN TƏRTİB EDİLMƏSİNDƏ İŞTİRAK EDƏN ŞƏXSLƏR VƏ BAZA EMİSSİYA PROSPEKTİNDƏ TƏQDİM EDİLMİŞ MƏLUMATLARA DAİR BƏYANAT**

Biz, aşağıda imza edənlər,

1. Azərbaycan Respublikasının Mərkəzi Bankının Emissiya prospektinə tələbləri haqqında müvafiq qaydaları ilə tanış olduğumuzu təsdiq edirik.
2. "PAŞA Bank" ASC-nin emissiyasının ümumi həcmi 200,000,000 (iki yüz milyon) Azərbaycan manatı və 200,000,000 (iki yüz milyon) ABŞ dolları olan, faizli, təminatsız, sənədsiz, adlı istiqrazlarının hazırki Baza emissiya prospektinə daxil edilmiş məlumatların həqiqi faktlar əsasında olduğu, heç bir faktın gizlədilmədiyini və bunun üçün bütün lazımi tədbirlərin görüldüyü barədə təminat veririk və məsuliyyəti öz üzərimizə götürürük.

**"PAŞA Bank" ASC-nin İdarə Heyətinin sədri**
**Quliyev Cavid Həsən oğlu**
**Tarix:09 sentyabr 2024-cü il**

Azərbaycan Respublikası Açıq Səhmdar Cəmiyyəti PAŞA Bank Open Joint Stock Company Azerbaijan Republic

**"PAŞA Bank" ASC-nin İdarə Heyətinin üzvü,**
**Baş Maliyyə İnzibatçısı**
**Süleymanov Murad Hüseyn oğlu**
**Tarix: 09 sentyabr 2024-cü il**

## I XÜLASƏ

**1. Xəbərdarlıqlar**

**1.1.** Bu sənəd baza emissiya prospektinin giriş hissəsidir.

**1.2.** İstiqrazlara investisiya etmək barədə hər hansı bir qərar investorun baza emissiya prospektini oxuduqdan sonra həyata keçirilməlidir.

**1.3.** Baza emissiya prospektində olan məlumatların yanlış, qeyri-dəqiq, ziddiyyətli olduğu və ya qiymətli kağızlara investisiya edib-etməmək barədə qərar verən investorlara kömək etmək məqsədilə əsas informasiyanın verilmədiyi zaman baza emissiya prospektini hazırlamış şəxslər mülki qaydada məsuliyyət daşıyırlar.

## 2. Emitent haqqında məlumat

**2.1 Emitentin tam adı**: "PAŞA Bank" Açıq Səhmdar Cəmiyyəti (bundan sonra "Emitent" və ya Bank" adlanacaq)

**Emitentin olduğu yer və təşkilati-hüquqi forması, emitentin qeydiyyatda olduğu ölkə:** Azərbaycan Respublikası, Bakı şəhəri, Yusif Məmmədəliyev küçəsi 13, Açıq Səhmdar Cəmiyyəti. "PAŞA Bank" Açıq Səhmdar Cəmiyyəti (bundan sonra "Emitent") 28 noyabr 2007-ci il tarixli, Azərbaycan Respublikasının Milli Bankı (hazırkı Azərbaycan Respublikasının Mərkəzi Bankı) tərəfindən müddətsiz olaraq verilən 250 saylı lisenziya əsasında fəaliyyət göstərir. Emitent 18.06.2007-ci ildə 1107-A3-455 nömrəsi ilə Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmışdır. Hazırki dövlət qeydiyyat nömrəsi (VÖEN):1700767721.

**2.1. Emitentin ticarət markası:** Emitentin "PAŞA Bank" əmtəə nişanı (ticarət markası) 09.10.2008-ci il tarixində 2008 1238 nömrəli əmtəə nişanı ilə dövlət reyestrində qeydiyyata alınıb.

**2.2. Emitentin beynəlxalq identifikasiya kodu:** Emitent 529900C4ED1UQX2LSR90 nömrəli beynəlxalq identifikasiya koduna malikdir (Legal Entity Identifier – LEI kodu). Bu kod ISO 17442 beynəlxalq standartına uyğun olaraq hüquqi şəxslərə verilmiş və maliyyə bazarlarında əməliyyatlarda və hesabatlarda istifadə edilən unikal koddur.

**2.3. Emitentə və onun əməliyyat apardığı sahələrə təsir edən ən vacib son tendensiyaların təsviri:** Emitent fəaliyyətini Azərbaycan Respublikasında və payları Emitentdə məxsus şirkətlər vasitəsilə Türkiyə və Gürcüstan ərazilərində göstərməkdədir. Türkiyə və Gürcüstan Respublikalarında payları Emitentə məxsus olan şirkətlərin (bankların) mövcudluğu "PAŞA Bank" ASC-yə xarici bazara çevik çıxış imkanını təqdim edir və xarici bazar ekspertizasından yararlanmağa imkan yaradır.

Belə ki, beynəlxalq reytinq agentlikləri tərəfindən Azərbaycan Respublikasının verilən kredit reytinqi BB+/BB+/Ba1 olaraq qeyd olunmuşdur. Reytinq güclü xarici balans hesabatı, Azərbaycan Respublikasına qonşu ölkələr qrupunda ən aşağı dövlət borcu və Dövlət Neft Fondunun aktivlərindən maliyyələşmə çevikliyi ilə dəstəklənir.

2023-cü ildə ölkə üzrə orta inflyasiya 9%-ə qədər azalaraq güclü manat və beynəlxalq ərzaq qiymətlərinin aşağı düşməsi ilə dəstəklənmişdır. Beynəlxalq Kredit Reytinq agentlikləri tərəfindən inflasiyanın 2024-cü ildə 4.5%-ə qədər azalacağı proqnozlaşdırılmışdır. İllik inflyasiya Azərbaycan Respublikasının Mərkəzi Bankının müəyyən etdiyi hədəf diapazonuna (4% ± 2 faiz dərəcəsi) daxil olduğu üçün Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən 2023-cü ildən etibarən uçot faiz dərəcəsi azaldılaraq 7.75%-ə, 2024-cü il may ayından etibarən isə 7.25%- ə qədər endirmişdir.

Bank sektoru 2023-cü ildə güclənmişdir. Qeyri-işlək kredit əmsalı 2023-cü ilin sonunda rekord minimum olan 1.8%-ə azalmışdır (2022-ci ilin sonuna bu rəqəm 2,9%). Kapitallaşma azalsa da, adekvat olaraq qalmışdır. 2023-cü ilin sonunda Bank sektorunun 1-ci dərəcəli kapital əmsalı

13.5% (2022-ci ilin sonunda bu rəqəm 15.2%) olmuşdur. Bank Sektoru üzrə gəlirlilik artmışdır. Artım yüksək aktiv vəsait gəlirliliyi və mülayim maliyyələşdirmə xərcləri ilə dəstəklənən depozit bazasında cari hesabların saxlanılmasından təsirlənmişdir.
Qeyd olunmuş tendensiyalar Emitentin strategiyasında çevik şəkildə əks olunduğu üçün 2023-cü ildə "S&P Global Ratings" reyting agentliyi Azərbaycan Respublikasında möhkəm korporativ biznes françayzını, böyük likvidlik buferlərini və növbəti 12 ay ərzində kredit profilini dəstəkləyən sabit müştəri depozitlərini nəzərə alaraq, Emitentin uzunmüddətli reytinqini BB- səviyyəsinə (yəni bir pillə) qaldırmışdır. "PAŞA Bank" ASC-nin 2023-cü ildə biznes kreditlərinin bazar payının 20.5%, depozit portfelinin 20.1%, cəmi aktivlərin 17.6% və ümumi kapitalın 14% təşkil etməsi nəzərə alınaraq ötən illərdə olduğu kimi sistem əhəmiyyətli bank olmuşdur.

**2.4. Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri:**

- **"PAŞA Yatirim Bankası" Anonim Şirkəti**. Emitentin "PAŞA Yatirim Bankası" Anonim Şirkətinin nizamnamə kapitalında payı 28.2093% təşkil edir. Ünvan: Sultan Selim məhəlləsi, Hümeyra küçəsi, PASHA Plaza № :2/7 34415 Kağıthane / İstanbul. "PAŞA Yatirim Bankası" Anonim Şirkəti" tərəfindən müvafiq lisenziya əsasında göstərilən bank xidmətlərinin siyahısı aşağıdakı kimidir (lakin bununla məhdudlaşmır):
  - Hər növ nağd və nağdsız kreditlərin verilməsi;
  - Nağd və hesabdan ödəniş, pul köçürmə əməliyyatları, inkassasiya xidmətləri;
  - Çeklərin və digər veksellərin tərtib edilməsi üzrə əməliyyatlar;
  - Nağd pul da daxil olmaqla valyuta əməliyyatları;
  - Xarici valyutaya əsaslanan opsion müqavilələrinin ticarəti və müvafiq xarici valyutada opsion müqavilələrinin brokerliyi;
  - Xarici valyutaya əsaslanan fyuçers müqavilələrinin ticarəti və müvafiq xarici valyuta fyuçers müqavilələrinin brokerliyi;
  - Qarantiya və digər üçüncü şəxslərin xeyrinə öhdəlik götürməklə bağlı əməliyyatlar;
  - İnvestisiya məsləhət xidmətləri;
  - Faktorinq və forfeytinq əməliyyatları;
  - Banklararası bazarda pul alqı-satqısı üzrə vasitəçilik əməliyyatları;
  - Maliyyə lizinqi əməliyyatları;
  - Sığorta agenti fəaliyyəti.

- **"PASHA Bank Georgia" Səhmdar Cəmiyyəti.** Emitentin Cəmiyyətin nizamnamə kapitalında payı 85.0588% təşkil edir.

PAŞA Bank

Ünvan: 37M, Ilia Chavchavadze prospekti, 0179, Tbilisi, Gürcüstan. "PASHA Bank Georgia" Səhmdar Cəmiyyəti tərəfindən müvafiq lisenziya əsasında göstərilən bank xidmətlərinin siyahısı aşağıdakı kimidir (lakin bununla məhdudlaşmır):

- Faizli və ya faizsiz bank əmanətlərinin (tələbli əmanət, müddətli əmanət və digər növlər) və digər geriödənilən ödəniş vəsaitlərinin qəbul edilməsi;
- İstehlak, ipoteka, təminatsız və digər növ kreditlərin verilməsi;
- Ticarət əqdlərinin maliyyələşdirilməsi, reqress hüququ olan və ya olmadan faktorinq, akkreditiv əməliyyatları, qarantiyaların verilməsi;
- Törəmə maliyyə alətləri üzrə əqdlər bağlamaq, maliyyə sənədlərinin (çek, depozit sertifikatı), xarici valyutanın və faiz alətlərinin alqı-satqısı;
- Nağd və nağdsız əməliyyatların icrası;
- Ödəniş alətlərinin (ödəniş kartları, çeklər, veksellər də daxil olmaqla) emissiyası və onların dövriyyəsinin təşkili.

- **"PAŞA Technology" MMC** (VÖEN:1404290674). Emitentin Cəmiyyətin nizamnamə kapitalında payı 8,09 % təşkil edir.
Ünvan: AZ1010, Bakı şəhəri, Nəsimi rayonu,Neftçilər prospekti, ev 153. "PAŞA Technology" MMC tərəfindən İT infrastrukturu və son istifadəçilər üçün dəstək xidmətləri göstərilir.
- **"Azərbaycan Kredit Bürosu" MMC** (VÖEN: 1305349901) Emitentin Cəmiyyətin nizamnamə kapitalında payı 12.5 % təşkil edir.
Ünvan: AZ1065, Bakı şəhəri, Yasamal rayonu, Cəfər Cabbarlı küçəsi, 40 C. Cəmiyyət "Kredit Büroları" haqqında Azərbaycan Respublikasının Qanunu ilə nəzərdə tutulmuş fəaliyyətlə məşğul olmaq məqsədilə yaradılmışdır. "Azərbaycan Kredit Bürosu" MMC nizamnaməsinə əsasən, aşağıdakı fəaliyyət növlərini həyata keçirir:

- Kredit tarixçəsi subyektinin kredit tarixçəsini təhlil edən məlumatların toplanması, saxlanılması, təhlil edilməsi və kredit hesabatlarının verilməsi;
- Kredit tarixçələrinin tərtib edilməsi və onlardan istifadənin avtomatlaşdırılması üçün xüsusi proqram təminatının hazırlanması və realizə edilməsi;
- Kredit bürolarının fəaliyyətinə aid olan xüsusi ədəbiyyatın və digər məlumat materiallarının realizə edilməsi;
- Kredit tarixçələrinin tərtib edilməsi və onlardan istifadə ilə bağlı məsləhət xidmətlərinin göstərilməsi;
- Kredit tarixçəsi subyektlərinin ödəmə qabiliyyətinin və borc öhdəliklərinin icra intizamının qiymətləndirilməsi və kredit tarixçəsinin subyektlərinə fərdi kredit reytinqlərinin verilməsi;
- Statistik tədqiqatların aparılması;
- Kredit bürosunun əsas fəaliyyətini dəstəkləyən digər fəaliyyət.

- **"Smilepay" MMC** (VÖEN:1306911760 1). Emitentin Cəmiyyətin nizamnamə kapitalında payı 75 % təşkil edir.

Ünvan: AZ1012, Bakı şəhəri, Yasamal rayonu, Həsənbəy Zərdabi prospekti ev 92A, mənzil 298. Cəmiyyətin əsas fəaliyyəti rəqəmsal texnologiyalara əsaslanmaqla innovativ ödəniş mexanizmlərinin icrasına dəstək göstərməkdir.

**2.5. Emitentin qrupda olan şəxslərdən asılı olduğu təqdirdə bu barədə qeyd:** Belə bir hal mövcud deyil.

**2.6. Gəlir proqnozunun mövcud olduğu zaman bu barədə qeyd:** Mövcud deyil.

**2.7. Audit edilmiş maliyyə məlumatlarına dair auditorun rəyinin qısa təsviri:**

"PAŞA Bank" ASC-nin və onun törəmə müəssisələrinin (Bank) 31 dekabr 2023-cü il tarixinə konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə başa çatan il üzrə konsolidasiya edilmiş mənfəət və ya zərər, konsolidasiya edilmiş ümumi gəlir, konsolidasiya edilmiş kapitalda dəyişikliklər və konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə konsolidasiya edilmiş maliyyə hesabatlarına dair qeydlərdən və mühüm mühasibat uçotu prinsiplərinin icmalından ibarət olan konsolidasiya edilmiş maliyyə hesabatlarının auditi "Ernst & Young Holdings (CIS) B.V." audit şirkəti tərəfindən aparılmışdır. Əlavə edilən konsolidasiya edilmiş maliyyə hesabatları 31 dekabr 2023-cü il tarixinə Bankın konsolidasiya edilmiş maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə konsolidasiya edilmiş maliyyə nəticələrini və konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq bütün əhəmiyyətli aspektlər üzrə düzgün formada əks etdirir.

**2.8. Son üç maliyyə ili ərzində hər maliyyə ili üzrə seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri:**

| *Məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir* | ***31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə*** | ***31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə*** | ***31 dekabr 2023-ci il tarixində başa çatmış il üzrə*** |
|---|---|---|---|
| Faiz gəlirləri | 318,416 | 384,316 | 535,777 |
| Faiz xərcləri | (81,287) | (86,586) | (104,785) |
| Xalis faiz gəliri | 237,129 | 297,730 | 430,992 |
| Maliyyə aktivləri üzrə kreditin zərər xərci | (24,687) | (48,315) | 2,471 |
| Qeyri-faiz gəliri | 75,237 | 92,673 | 96,385 |
| Qeyri-faiz xərcləri | (154,204) | (174,187) | (224,756) |
| Mənfəət vergisi xərcindən əvvəlki mənfəət | 133,475 | 146,825 | 285,254 |
| Mənfəət vergisi xərci | (31,158) | (44,899) | (59,542) |

| | | | |
|---|---|---|---|
| İl üzrə mənfəət | 102,317 | 101,926 | 225,712 |
| İl üzrə digər ümumi gəlir, vergidən sonra | (66,434) | 13,234 | 60,373 |
| **İl üzrə cəmi Ümumi gəlir** | **35,883** | **115,160** | **286,085** |
| **Cəmi aktivlər** | **7,008,183** | **9,217,947** | **8,893,428** |
| Cəmi öhdəliklər | 6,430,745 | 8,569,663 | 8,060,865 |
| Cəmi Kapital | 577,438 | 648,284 | 832,563 |
| **Cəmi öhdəliklər və Kapital** | **7,008,183** | **9,217,947** | **8,893,428** |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | **1,325,411** | **3,302,130** | **1,975,558** |

**2.9. Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri emitentin fəaliyyətində dəyişikliyin olub-olmaması barədə məlumat:** Dəyişiklik olmamışdır.

**2.10. Emitentin ödəmə qabiliyyətinin qiymətləndirilməsinə təsir edən ən son hadisələr:**

Emitent 2023-cü ili 225 milyon 712 min manat xalis mənfəət ilə başa vurmuşdur. Bu, 2022-ci illə müqayisədə 2,2 dəfə (121.4%) çox olmuşdur. Emitentin 2022-ci il üzrə xalis mənfəəti 101 milyon 926 min manat təşkil etmişdir.

**2.11. Emitentin əsas fəaliyyətlərinin təsviri:**

Emitentin strateji baxışı müstəsna xidmət, qabaqcıl məhsullar və müştəri yönümlü yanaşma ilə bankçılığın yeni üfüqlərinin kəşfinə çıxaraq və iqtisadi tərəqqiyə öz töhfəsini verərək Azərbaycanın aparıcı bankına çevrilməkdir.

Emitentin missiyası aşağıdakı kimidir:

- Müştəri yönümlü yanaşma, keyfiyyətli məhsullar və qabaqcıl texnologiyalar üzərindən müştərilərimizi yeni zirvələrə yüksəltmək;
- Ən bacarıqlı kadrları cəlb edib qoruyaraq və liderliyi gücləndirərək, inkişafı təmin edib, yeni istedadlar dövrünə təkan vermək;
- Bugünkü və gələcək nəsillər üçün Korporativ sosial məsuliyyət siyasəti çərçivəsində və ekoloji, sosial və korporativ idarəetmə yanaşmasına cavab verən təşəbbüslər vasitəsilə maliyyə dayanıqlılığını inkişaf etdirmək;
- Dayanıqlı biznes mühiti və təşkilati şəffaflığı təmin edərək yeni imkanlar üzərindən səhmdarlara ən yüksək dəyər qazandırmaq.

Azərbaycan Respublikasının qanunvericiliyi və bank lisenziyası ilə müəyyən edilən hüdudlarda Emitent aşağıdakı bank əməliyyatlarını həyata keçirmək hüququna malikdir:

- Tələbli və müddətli depozitlərin (əmanətlərin) və digər qaytarılan vəsaitlərin cəlb edilməsi;

- Kreditlərin (təminatlı və/və ya təminatsız) verilməsi, o cümlədən istehlak və ipoteka kreditləşdirilməsi, reqres hüququ ilə və ya belə hüquq olmadan faktorinq, forfeytinq, lizinq xidmətləri və digər kreditləşdirmə növləri;
- Fiziki və hüquqi şəxslərin hesablarının, o cümlədən bankların müxbir hesablarının açılması və aparılması;
- Klirinq, ödəniş xidmətləri, o cümlədən hesablaşma-kassa xidmətləri, ödəniş sistemlərinin təşkili, qiymətli kağızlar üzrə əməliyyatlardan irəli gələn ödənişlərin aparılması;
- Çek və veksellərin buraxılması;
- Öz hesabına və ya müştərilərin hesabına çeklərin, köçürmə veksellərinin, qiymətli metalların və qiymətli daşların, habelə öz hesabına valyuta və faiz dərəcələrinə aid törəmə maliyyə alətlərinin alqı-satqısı.
- Öz hesabına və ya müştərilərin hesabına valyuta mübadiləsi əməliyyatlarının həyata keçirilməsi
- Qiymətli metalların əmanətə cəlb edilməsi və yerləşdirilməsi;
- Öhdəliklərin icrasına təminatların, o cümlədən qarantiyaların verilməsi və öz hesabına və ya müştərilərin hesabına akkreditivlərin açılması;
- Maliyyə müşaviri, maliyyə agenti və ya məsləhətçisi xidmətlərinin göstərilməsi;
- Kreditlərə və kredit qabiliyyətinin yoxlanılmasına dair informasiya verilməsi və xidmətlər göstərilməsi;
- Sənədləri və qiymətliləri, o cümlədən pul vəsaitlərini saxlanca qəbul etmək (xüsusi otaqlarda və ya seyf qutularında saxlamaq);
- Qiymətlilərin, o cümlədən banknotların və sikkələrin inkasasiya edilməsi və göndərilməsi və qanunvericiliyə uyğun olaraq digər fəaliyyət növləri.
- Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi ilə qadağan olunmayan digər fəaliyyət növlərinin həyata keçirilməsi.

**2.12. Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətinin xüsusiyyəti:**

2.12.1. Emitentin ümumi fəaliyyətinə nəzarəti Səhmdarların Ümumi Yığıncağı və Müşahidə Şurası həyata keçirir. Mühüm iştirak payına sahib olan səhmdarlar iclaslarda şəxsən və ya nümayəndələri vasitəsilə təmsil olunurlar. Emitentin İdarə Heyəti bankın idarə olunması və fəaliyyətinin həyata keçirilməsi üçün məsuliyyət daşıyır.

2.12.2. İdarə Heyətinin üzvləri Emitentin Müşahidə Şurası tərəfindən 3 ildən çox olmayan müddətə təyin edilirlər və onlar qanunvericiliyə uyğun olaraq növbəti müddətə yenidən təyin edilə bilərlər. Emitentin ali idarəetmə orqanı Səhmdarların Ümumi Yığıncağıdır. Emitentin idarə olunmasına və işinə fəaliyyətinə nəzarəti Müşahidə Şurası həyata keçirir. Müşahidə Şurası 3 (üç) nəfərdən az olmamaqla, tək sayda üzvlərdən ibarətdir. Şuranın üzvləri Bankın Səhmdarlarının Ümumi Yığıncağı tərəfindən qanunvericiliyin müvafiq tələblərinə cavab verən şəxslərdən 3 (üç) il müddətinə seçilən fiziki şəxslərdir. Müşahidə Şurasının üzvləri

qanunvericiliklə müəyyən edilmiş qaydada növbəti müddətlərə yenidən seçilə bilərlər. Səhmdarların Ümumi Yığıncağı Müşahidə Şurasının üzvləri sırasından Müşahidə Şurasının sədrini təyin edir.

## 3. İstiqrazlar barədə ümumi məlumat

**3.1. İstiqrazların növü və forması:** Faizli, təminatsız, sənədsiz, adlı istiqrazlar (bundan sonra "İstiqraz" və ya "İstiqrazlar")

**3.2. İstiqrazların valyutası**: Azərbaycan manatı (AZN) və ABŞ dolları. Hazırki baza emissiya prospekti əsasında Emitent tərəfindən emissiyasının ümumi həcmi 200,000,000 (iki yüz milyon) Azərbaycan manatı və 200,000,000 (iki yüz milyon) ABŞ dolları olaraq müəyyən edilmişdir.

**3.3. İstiqrazlarla təsbit olunan məhdudiyyətlər**: Bir investor tərəfindən istiqrazlar üzrə təklifin həcmi istiqrazların valyutasından asılı olaraq minimum müvafiq olaraq 10,000 (on min) Azərbaycan manatı/10,000 (on min) ABŞ dolları dəyərində müəyyən edilmişdir. Hər buraxılış daxilində rəqabətliliyi təmin etmək üçün investorların sifarişinə maksimum hədd qoyula bilər. Belə həddin tətbiq edilməsi və məbləği istiqrazların emissiyası üzrə yekun şərtlərlə (bundan sonra "Yekun şərtlər" adlanacaq) müəyyən ediləcəkdir. İstiqrazlar üzrə hər hansı digər məhdudiyyətlər nəzərdə tutulmamışdır.

**3.4. İstiqrazların təsbit olunmuş hüquqların təsviri:**

- Emitentin ləğvi, yaxud Emitentin kreditorları qarşısında olan öhdəliklərinin icrasına dair təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan edildikdə istiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;
- Özünə məxsus istiqrazların vəziyyəti barədə məlumat almaq üçün Milli Depozit Mərkəzinə müraciət etmək;
- İstiqrazların tədavül müddəti bitdikdə istiqrazların nominal dəyərini Emitentdən almaq;
- İstiqrazların tədavül müddəti ərzində istiqrazların nominal dəyərindən faiz almaq;
- İstiqrazla təsdiqlənmiş hüquqları alqı-satqı bağlamaq yolu ilə ötürmək;
- İstiqrazları girovla və qanunvericiliklə nəzərdə tutulmuş digər öhdəliklərlə yükləmək (Belə yüklənmə qiymətli kağızlar üzrə depozitar sistemdə qeydiyyata alındığı andan qüvvəyə minir);
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

İstiqraz mülkiyyətçiləri öz hüquqlarını bilavasitə özləri və ya qanunvericiliklə nəzərdə tutulmuş qaydada səlahiyyətli nümayəndələri vasitəsi ilə həyata keçirə bilərlər.

**3.5. İstiqrazların faiz dərəcəsi. İstiqrazların faizlərinin və dəyərinin ödənilmə tarixi və müddəti:** Azərbaycan manatı valyutasında bir il müddətinə (tədavül müddəti) emissiya ediləcək istiqrazlar üzrə faiz dərəcəsi 10%-ə qədər, iki il müddətinə emissiya ediləcək istiqrazlar üzrə isə 11%-ə qədər olmaqla, Yekun şərtlərlə müəyyən ediləcəkdir.

PAŞA Bank

ABŞ dolları valyutası üzrə bir il müddətinə (tədavül müddəti) emissiya ediləcək istiqrazlar üzrə faiz dərəcəsi 5.00%-ə qədər, iki il müddətinə emissiya ediləcək istiqrazlar üzrə isə faiz dərəcəsi 5.5%-ə qədər olmaqla, Yekun şərtlərlə müəyyən ediləcəkdir.

İstiqrazlar üzrə ödənilməli olan faizlər istiqrazların tədavül dövründə, buraxılışda olan hər istiqrazın yerləşdirildiyi tarixdən etibarən, 360 (üç yüz altmış) gün müddətində ardıcıl olaraq hər 90 (doxsan) gün müddətinin başa çatması tarixindən növbəti 3 (üç) iş günündən gec olmayaraq ödənilir. Ödənişlər bank hesabları vasitəsilə nağdsız qaydada həyata keçirilir.

İstiqrazların nominal dəyəri sonuncu faiz ödənişi ilə birlikdə ödəniləcəkdir.

3.6. **Təmin edilmiş istiqrazlar üzrə təminatın təsviri və şərtləri:** Təminatsızdır.

3.7. **İstiqrazların geri satın alınma şərtləri:** İstiqrazların geri satın alınması ilə bağlı Emitent tərəfindən öhdəlik nəzərdə tutulmur. Emitentlə qarşılıqlı razılıq əsasında, emitent və investor (alıcı) arasında razılaşdırılmış qiymət əsasında istiqrazlar Emitent tərəfindən geri satın alına bilər.

3.8. **Gəlirin qısa formada hesablama metodunu göstərməklə gəlir göstəricisi:** İstiqrazlar üzrə faiz gəlirliliyi hər emissiya üzrə yekun şərtlərlə müəyyən ediləcəkdir. İstiqrazlar üzrə toplanmış faizlərin hesablanması aşağıdakı düstura uyğun olaraq aparılır:

$$TF = \frac{\left(\frac{N * D * G}{360}\right)}{100}$$

Burada:

TF – Bir istiqraz üzrə toplanmış faizlər

N – Bir istiqrazın nominal dəyəri: Yekun şərtlərlə müəyyən ediləcəkdir.

D – İstiqrazların illik faiz dərəcəsi: Yekun şərtlərlə müəyyən ediləcəkdir.

G – İstiqrazlar üzrə faiz ödənişi dövrünün müddəti- hər 90 (doxsan) təqvim günündən bir

3.9. **İstiqrazların mülkiyyətçisinin təmsilçisinin adı:** Mövcud deyil.

3.10. **Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:** İstiqrazlar təmin edilməmiş formada emissiya edilir.

3.11. **İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda istiqrazların ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri:**

İstiqrazların kütləvi təklif üsulu ilə ilkin yerləşdirilməsi Baza Emissiya Prospekti və hər bir buraxılış üzrə Yekun Şərtlər dövlət qeydiyyatına alındıqdan sonra "Bakı Fond Birjası" QSC-nin ticarət platforması vasitəsilə həyata keçiriləcəkdir. İstiqrazların Bakı Fond Birjasında listinqə daxil edilməsi ilə bağlı müraciət istiqrazın buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir.

7 avqust 1997-ci il Bakı Fond Birjası Səhmdar Cəmiyyətinin yaradılması tarixidir. 25 oktyabr 1999-cu ildə birja Bakı Fond Birjası Qapalı Səhmdar Cəmiyyəti olaraq yenidən formalaşmışdır. Birjanın yaradılması anından etibarən BFB Azərbaycanın fond sahəsində təşkil olunmuş yeganə birjadır. Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən verilmiş "fond birjası fəaliyyəti"ni həyata keçirməyə icazə verən 5 nömrəli müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin təşkilatçısı kimi fəaliyyət göstərir. Birjanın yaradılması anından etibarən Bakı Fond Birjası Azərbaycanın fond sahəsində təşkil olunmuş yeganə birjadır. Ünvan: Bakı şəhəri, Yasamal rayonu, Həsən Bəy Zərdabi küçəsi 2A (Şokolad Tower) Əlaqə nömrəsi: (+994 12) 498 98 20
Bakı Fond Birjasının fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli Kağızlar Bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər normativ hüquqi aktları və Bakı Fond Birjasının nizamnaməsi və daxili qaydaları ilə tənzimlənir.

## 4. Risk faktorları

**4.1. Təklif olunan qiymətli kağızlarla əlaqəli bazar risklərini qiymətləndirmək üçün zəruri olan risk faktorları:**

- valyuta riski - valyuta kurslarının əlverişsiz şəkildə dəyişməsindən yaranan itki riski;
- faiz riski - faiz dərəcələrinin mənfi dəyişməsindən yaranan itki riski;
- inflyasiya riski - pulun alıcılıq qabiliyyətinin aşağı düşməsi ilə bağlı risk;
- likvidlik riski - müəyyən anda aktivlərin satışı və ya alışı ilə bağlı çətinliklərin yaranması mümkünlüyü;
- əməliyyat riski - daxili proseslər, sistem pozuntuları, insan faktoru və xarici hadisələrdən meydana gələn itki riskləri;
- hesablaşma və kontragent riski - hesablaşmanın vaxtından gec aparılması və aparılmasından əvvəl kontragentin öhdəliklərini icra edə bilməməsi səbəbindən meydana gələn itki riskləri;
- kredit riski - borcalanın öhdəliklərini yerinə yetirə bilməməsindən meydana gələn itki riskləri;
- təbii - insan fəaliyyətindən asılı olmayan risk (təbii fəlakət, zəlzələ, daşqın, tufan, qasırğa, ildırım və s. risklər)

**4.2. İstiqrazların emissiyası zamanı emitentin və ya onun fəaliyyət göstərdiyi sahəyə xas olan risk faktorları, istiqraz emissiyası zamanı emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edə bilən risk faktorları:** İqtisadi kiçilmə, alıcılıq qabiliyyətinin aşağı düşməsi və onun satışları üzərində mənfi təsiri, təbii fəlakətlərin baş verməsi (fors-major hallar),

qlobal və yerli rəqabət, qanunvericilikdə emitentin fəaliyyətinə birbaşa və dolayı yolla təsir edə bilən dəyişikliklər.

5. **Təklif**

5.1. **Təklifin səbəbi mənfəətin əldə edilməsi və ya bəzi risklərin sığortalanmasından fərqli olduğu təqdirdə emissiyanın səbəbi:** Bu istiqrazların buraxılışı mütəşəkkil kapital bazarından sərbəst vəsaitlərin cəlb edilməsi ilə bankın aktivlərinin və pul vəsaitlərinin resurs bazasının diversifikasiyasının artırılması, eləcə də Azərbaycan Respublikasının qiymətli kağızlar bazarının inkişafına töhfə vermək məqsədi ilə həyata keçiriləcəkdir.

Emissiyadan əldə olunan vəsait onun strateji hədəflərinin reallaşdırılması, bazar nüfuzunun və bazar payının artırılması, eləcə də xarici mühitdə yaranacaq hər cür dəyişikliyə cəld və effektiv uyğunlaşmanın təmini üçün lazımi resursların və mexanizimlərin təkmilləşdirilməsinə investisiya olacaq. Emitentin fəaliyyəti nəticəsində əldə edilmiş gəlirlər Emitentin kapitallaşdırılmasına yönəldiləcək və pul vəsaitlərinin resurs bazasının fərqləndirilməsinə imkan yaradacaqdır.

5.2. **Təklifin şərtlərinin təsviri:**

5.2.1 **Təklifin və yerləşdirmənin başlanma və başa çatma tarixləri:** Baza Emissiya Prospekti Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən dövlət qeydiyyatına alındıqdan sonra hər bir istiqraz buraxılışı üzrə yerləşdirmənin başlanma və başa çatma tarixlərinin təyin olunma qaydası Yekun Şərtlərdə müəyyən ediləcəkdir. Yekun şərtlər Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən qeydiyyata alındıqdan sonra abunə yazılışına 1 (bir) ay ərzində başlanılacaq. Abunə yazılışının başlama və başa çatma tarixləri hər buraxılış üzrə Yekun şərtlərlə müəyyən ediləcəkdir.

Abunə yazılışı başa çatdıqdan sonra istiqrazların yerləşdirilməsinə 5 (beş) iş günü ərzində başlanılacaq və istiqrazların yerləşdirilməsi müddəti başlandığı tarixdən etibarən 7 (yeddi) iş günündən çox olmamaq şərti ilə tamamlanacaqdır. Ümumilikdə qiymətli kağızların yerləşdirilməsi qanunvericilikdə nəzərdə tutulmuş qaydalara əsasən tamamlanacaqdır.

5.2.2 **İstiqrazlara abunə yazılışının qaydası:** İstiqrazlara abunə yazılışı investorlar tərəfindən müvafiq sifarişin bu baza emissiya Prospektində qeyd olunmuş anderrayterə təqdim edilməsi ilə həyata keçirilir. Abunə yazılışı üçün sifariş investor tərəfindən imzalanmalıdır. Hüquqi şəxslərin təqdim etdikləri sifariş onların səlahiyyətli şəxsi tərəfindən imzalanmalı və möhürlənməlidir. Sifariş təqdim edilərkən onun üzərində investisiya şirkətlərinin səlahiyyətli şəxsi tərəfindən sifarişin qəbul edildiyi tarix, vaxt, qeydiyyat nömrəsi, sifarişi qəbul edən şəxsin adı, soyadı qeyd edilir və uçota alınır. Abunə yazılışı sifarişləri uçota alınaraq, abunə yazılışı müddətində Anderrayterlər tərəfindən toplanır.

Bakı Fond Birjasında istiqrazların yerləşdirilməsindən əvvəl toplanmış abunə yazılışı sifarişləri əsas anderrayter olan "PAŞA Kapital İnvestisiya Şirkəti" QSC, anderrayter "CPM-İnvest

İnvestisiya Şirkəti" ASC və "Unicapital İnvestisiya Şirkəti" ASC tərəfindən investorlar arasında bölüşdürülür. Toplanmış sifarişlərin (tələb) həcmi təklifdən az olarsa, hər bir investorun tələbini tam ödəməklə icra edilir. Toplanmış sifarişlərin (tələblərin) həcmi təklifdən çox olarsa, təklif edilən istiqrazlarının sayının tələb olunan istiqrazların sayına olan nisbəti (əmsal) hesablanır. Hər bir investorun abunə yazılışı sifarişinin sayı bu əmsala vurularaq, alınan rəqəmin kəsr hissəsi aşağı yuvarlaqlaşdırılmaqla, rəqəmin tam hissəsi qədərində investora istiqraz bölüşdürüləcəkdir. Bundan sonra yarana biləcək yuvarlaqlaşdırma qalığı, investorların sifarişlərinin icraya qəbul edilmə tarixi və vaxtı (əvvəlinci sifarişdən sonrakına doğru) nəzərə alınmaqla, yaranmış yuvarlaqlaşdırma qalığı bitənə qədər istiqrazlar bir-bir ödənilməklə icra ediləcəkdir.

**5.2.3 İstiqrazların dəyərinin ödənilməsi və investorların istiqrazlarla təchizatı şərtləri və qaydası.** İstiqrazların yerləşdirilməsi nəticəsində istiqrazlar investorların depo hesabına köçürüləcəkdir, pul vəsaitləri isə Emitentin adına açılmış "PAŞA Bank" ASC-dəki müvəqqəti cari hesaba köçürüləcəkdir. Müvəqqəti cari hesabda olan pul vəsaitləri "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikası Qanununun 8.1-ci maddəsinə uyğun olaraq istiqrazların yerləşdirilməsi başa çatdıqdan dərhal sonra emitentin bank hesabına köçürüləcəkdir.

**5.2.4 İstiqrazların təklif qiyməti. Qiymətin məlum olmadığı təqdirdə istiqrazların qiymətin müəyyənləşdirmə metodunu göstərilməklə bu prosesdə iştirak edən və məsuliyyət daşıyan şəxslər barəsində məlumat:** İstiqrazlar nominal dəyərlə təklif ediləcəkdir. Abunə yazılışı dövründə İnvestorlar tərəfindən verilən sifarişlərin verilmə tarixindən və həcmindən asılı olmayaraq, emissiya daxilində hər bir istiqrazın nominal dəyəri Yekun şərtlərlə müəyyən ediləcəkdir.

**5.3. Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat:**

**5.3.1. "Bakı Fond Birjası" Qapalı Səhmdar Cəmiyyəti (BFB).** Emissiya prosesində iştirak edən BFB yeni emissiya ediləcək istiqrazların listinqə daxil edilməsi, listinqdə saxlanılması, ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarlarda alqı-satqısı üçün mütəşəkkil ticarəti təşkil edir. İstiqrazların emissiyası prosesində "Bakı Fond Birjası" QSC istiqrazların listinqə daxil edilməsi və listinqdə saxlanması, istiqrazların təkrar bazar əməliyyatlarının aparılması üçün müvafiq ticarət sisteminin təmin edilməsini həyata keçirir

Bakı Fond Birjasının "PAŞA Bank" ASC-nin və digər emitentlərin emissiya etdiyi qiymətli kağızların onun ticarət platformasında ticarətə buraxılmasında marağı kommersiya xarakterlidir. BFB qiymətli kağızların yerləşdirilməsi və tədavülündən, habelə qiymətli kağızların listinqindən öz tarif cədvəlinə uyğun olaraq xidmət haqqı tutur.

**5.3.2. Milli Depozit Mərkəzi (MDM).** Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi qeyri-kommersiya hüquqi şəxs formasında təsis edilmiş, Azərbaycan Respublikası ərazisində depozitar sistemini idarə edən mərkəzi depozitardır. İstiqrazların emissiyası prosesində Milli Depozit Mərkəzinin vəzifələri aşağıdakı kimidir:

- İstiqrazların saxlanması və uçotunun aparılması;
- İstiqraz mülkiyyətçilərinin reyestrinin aparılması;
- Emitentin ödəniş agenti qismində istiqraz üzrə istiqraz mülkiyyətçilərinə ödənişlərin (əsas borc və faiz) həyata keçirilməsi xidmətinin göstərilməsi.

Bu xidmətlərin göstərilməsinə görə MDM öz tarif cədvəlinə uyğun olaraq xidmət haqqı tutur.

**5.3.3. Əsas anderrayter "PAŞA Kapital İnvestisiya Şirkəti" Qapalı Səhmdar Cəmiyyəti** 09.03.2016-cı il tarixli, İSN/L-640/2016 saylı müddətsiz lisenziya əsasında qiymətli kağızlar bazarında əsas və yardımçı investisiya xidmətlərini göstərən peşəkar investisiya şirkətidir.

**Anderrayter "Unicapital İnvestisiya Şirkəti" QSC** 08.01.2016-cı il tarixli, İSN/L-30/2016 saylı müddətsiz lisenziya əsasında qiymətli kağızlar bazarında əsas və yardımçı investisiya xidmətlərini göstərən peşəkar investisiya şirkətidir.

**Anderrayter "CPM-İnvest İnvestisiya Şirkəti" ASC** İŞ-07 saylı, 14.11.2022-cı il tarixli müddətsiz lisenziya əsasında qiymətli kağızlar bazarında əsas və yardımçı investisiya xidmətlərini göstərən peşəkar investisiya şirkətidir.

"PAŞA Bank" ASC tərəfindən buraxılacaq istiqrazların anderraytinqi və yerləşdirilməsi "PAŞA Kapital İnvestisiya Şirkəti" QSC, "Unicapital İnvestisiya Şirkəti" QSC, "CPM-İnvest İnvestisiya Şirkəti" ASC tərəfindən həyata keçiriləcəkdir və bu xidmətlərin göstərilməsinə görə Emitentdən xidmət haqqı tutacaqdır. "PAŞA Bank" ASC-nin istiqrazlarının anderraytinqi və yerləşdirilməsi prosesində "PAŞA Kapital İnvestisiya Şirkəti" QSC, "Unicapital İnvestisiya Şirkəti" QSC, "CPM-İnvest İnvestisiya Şirkəti" ASC-nin maraqları kommersiya xarakterlidir.

Emissiyada iştirak edən şəxslərin maraqlarının toqquşması halı mövcud deyildir.

**5.4. İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:** Azərbaycan Respublikasının Vergi Məcəlləsinin (bundan sonra "AR Vergi Məcəlləsi") 123.1-ci maddəsinə əsasən rezident fiziki şəxsə, qeyri-rezident fiziki şəxsin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyinə (maliyyə lizinqini həyata keçirən fiziki şəxslər istisna olmaqla) və Azərbaycan Respublikasında daimi nümayəndəliyi olmayan qeyri-rezidentə rezident tərəfindən və ya qeyri-rezidentin daimi nümayəndəliyi tərəfindən, yaxud bu cür nümayəndəliyin adından ödənilən faizlərdən, o cümlədən maliyyə lizinqi əməliyyatları üzrə ödənilən ssuda faizlərindən, gəlir AR Vergi Məcəlləsinin 13.2.16-cı maddəsinə uyğun olaraq Azərbaycan mənbəyindən əldə edilmişdirsə, ödəniş mənbəyində 10 faiz dərəcə ilə vergi tutulur.

AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində Azərbaycan Respublikasının ərazisində, habelə ölkə hüdudlarından kənarda rezident hüquqi şəxslər tərəfindən kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən fiziki şəxslərin dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azad olunmuşdur.

İstiqraz üzrə gəlirlərdən mənbədə digər vergilərin tutulması AR Vergi Məcəlləsinə uyğun tənzimlənir. İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi aidiyyəti vergilərlə bağlı dəyişiklər olarsa, ona uyğun vergilər tətbiq ediləcək.

**Xərclər:** İlkin bazarda istiqrazların alışı zamanı həyata keçən əqdlərdən aşağıdakı investor xərcləri yarana bilər:

İstiqraz alışı üçün anderraytera verilmiş sifarişin icrası üçün anderrayterin və "Bakı Fond Birjası" QSC-nin tətbiq etdiyi xidmət haqları. Bu xidmət haqqı sifarişin icra olunmuş həcmindən asılı olaraq anderrayter və "Bakı Fond Birjası" QSC tərəfindən müəyyən edilir. Anderrayterin tətbiq etdiyi xidmət haqqı investorla bağlanmış müqavilədə, Bakı Fond Birjası QSC-nin tətbiq etdiyi xidmət haqqı barədə məlumat isə onun internet səhifəsində (https://www.bfb.az/az/bfb-ticaret-tariffleri-ve-uzvlukhaqlari) dərc edilmişdir.

**Əsas Anderrayter "PAŞA Kapital İnvestisiya Şirkəti" QSC üzrə:**

| | | |
|---|---|---|
| **Fiziki şəxslər tərəfindən ödənilən komissiya (xərclər)** | Hesab açılması | 5 AZN Milli Depozit Mərkəzinə,<br>15 AZN isə İnvestisiya şirkətinə ödənilir. |
| | Milli Depozit Mərkəzi | ---- |
| | Bakı Fond Birjası | 0.02% |
| | İnvestisiya Şirkəti | 0.05% (min 30 AZN) |
| **Hüquqi şəxslər tərəfindən ödənilən komissiya (xərclər)** | Hesab açılması | 5 AZN Milli Depozit Mərkəzinə,<br>15 AZN isə İnvestisiya şirkətinə ödənilir. |
| | Milli Depozit Mərkəzi | ----- |
| | Bakı Fond Birjası | 0.02% |
| | İnvestisiya Şirkəti | 0.01% (min 50 AZN) |

**Anderrayter "Unicapital İnvestisiya Şirkəti" ASC üzrə:**

| | | |
|---|---|---|
| **Fiziki şəxslər tərəfindən ödənilən komissiya (xərclər)** | Hesab açılması | 5 AZN Milli Depozit Mərkəzinə,<br>5 AZN isə İnvestisiya şirkətinə ödənilir. |
| | Milli Depozit Mərkəzi | ------- |
| | Bakı Fond Birjası | 0.02% |
| | İnvestisiya Şirkəti | 0.05% (min 20 AZN) |
| **Hüquqi şəxslər tərəfindən ödənilən** | Hesab açılması | 5 AZN Milli Depozit Mərkəzinə,<br>5 AZN isə İnvestisiya şirkətinə ödənilir. |
| | Milli Depozit Mərkəzi | ------- |

PAŞA Bank

| | | |
|---|---|---|
| **komissiya (xərclər)** | Bakı Fond Birjası | 0.02% |
| | İnvestisiya Şirkəti | 0.01% (min 30 AZN) |

**Anderrayter "CPM-İnvest İnvestisiya Şirkəti" QSC üzrə:**

| | | |
|---|---|---|
| **Fiziki şəxslər tərəfindən ödənilən komissiya (xərclər)** | Hesab açılması | 5 AZN Milli Depozit Mərkəzinə, 15 AZN isə İnvestisiya şirkətinə ödənilir. |
| | Milli Depozit Mərkəzi | ------- |
| | Bakı Fond Birjası | 0.02% |
| | İnvestisiya Şirkəti | 0.05% (min 30 AZN) |
| **Hüquqi şəxslər tərəfindən ödənilən komissiya (xərclər)** | Hesab açılması | 5 AZN Milli Depozit Mərkəzinə, 45 AZN isə İnvestisiya şirkətinə ödənilir. |
| | Milli Depozit Mərkəzi | ------- |
| | Bakı Fond Birjası | 0.02% |
| | İnvestisiya Şirkəti | 0.01% (min 30 AZN) |

PAŞA Bank

## II İSTİQRAZLARIN EMİTENTİ BARƏDƏ TƏLƏB OLUNAN MƏLUMAT

**1. Emitentin auditorları barədə məlumat**

**1.1. Son üç maliyyə ili ərzində emitentin auditorlarının adı, ünvanları və hər hansı təşkilatda üzvlüyü barədə məlumat:**

| İl | Auditorun adı | Auditorun ünvanı | Auditorun üzv olduğu təşkilat |
|---|---|---|---|
| 2021 | Ernst & Young Holdings (CIS) B.V. | AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, Neftçilər pr., ev 153, A Bloku, 9-cu mərtəbə | EY Global |
| 2022 | Ernst & Young Holdings (CIS) B.V. | AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, Neftçilər pr., ev 153, A Bloku, 9-cu mərtəbə | EY Global |
| 2023 | Ernst & Young Holdings (CIS) B.V. | AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, Neftçilər pr., ev 153, A Bloku, 9-cu mərtəbə | EY Global |

**1.2.Son üç maliyyə ili ərzində auditorların əvəzlənməsi və ya dəyişdirilməsi barədə, səbəbləri göstərilməklə, məlumat:** bu barədə məlumat yoxdur.

**2. Emitent barədə məlumat**

**2.1.Emitentin tam adı, təşkilati-hüquqi forması:** "PAŞA Bank" Açıq Səhmdar Cəmiyyəti
**Emitentin dövlət qeydiyyatının rekvizitləri:** "PAŞA Bank" Açıq Səhmdar Cəmiyyəti (bundan sonra "Emitent") 28 noyabr 2007-ci il tarixli, Azərbyacan Respublikasının Milli Bankı (hazırkı Azərbaycan Respublikasının Mərkəzi Bankı) tərəfindən verilən 250 saylı müddətsiz lisenziya əsasında fəaliyyət göstərir. Emitent 18.06.2007-ci ildə 1107-A3-455 nömrəsi ilə Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmışdır. Hazırki dövlət qeydiyyat nömrəsi (VÖEN):1700767721.

**2.2. Emitentin təşkilati-hüquqi forması dəyişdirildikdə, onun bütün əvvəlki adları, təşkilati-hüquqi formaları, o cümlədən dəyişikliklərin qeydiyyat tarixi:** Bu barədə məlumat yoxdur

**2.3. Emitentin olduğu yer, poçt ünvanı, elektron poçt ünvanı, emitentin internet səhifəsinin ünvanı və əlaqə telefonları:**

Azərbaycan Respublikası, Bakı şəhəri, Yusif Məmmədəliyev küçəsi 13
office@pashabank.az www.pashabank.az (+99412) 596-50-00

**2.4. Emitentin qiymətli kağızlarının ticarətə buraxıldığı tənzimlənən bazarlar barədə məlumat:**

İstiqrazların Azərbaycan Respublikası ərazisində yerləşdirilməsi nəzərdə tutulmuşdur. İnvestorlar kimi rezident və ya qeyri-rezident şəxslər çıxış edə bilər.

7 avqust 1997-ci il Bakı Fond Birjası Səhmdar Cəmiyyətinin yaradılması tarixidir. 25 oktyabr 1999-cu ildə birja Bakı Fond Birjası Qapalı Səhmdar Cəmiyyəti olaraq yenidən formalaşmışdır. Birjanın yaradılması anından etibarən BFB Azərbaycanın fond sahəsində təşkil olunmuş yeganə birjadır. Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən verilmiş "fond birjası fəaliyyəti"ni həyata keçirməyə icazə verən 5 nömrəli müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin təşkilatçısı kimi fəaliyyət göstərir. Birjanın yaradılması anından etibarən Bakı Fond Birjası Azərbaycanın fond sahəsində təşkil olunmuş yeganə birjadır. Ünvan: Bakı şəhəri, Yasamal rayonu, Həsən Bəy Zərdabi küçəsi 2A (Şokolad Tower) Əlaqə nömrəsi: (+994 12) 498 98 20

Bakı Fond Birjasının fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli Kağızlar Bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər normativ hüquqi aktları və Bakı Fond Birjasının nizamnaməsi və daxili qaydaları ilə tənzimlənir.

## 3. Emitentin biznesinin icmalı

**3.1. Emitentin əsas fəaliyyət istiqaməti:** Emitentin əsas fəaliyyət istiqaməti bank fəaliyyətidir. Emitent milli və xarici valyutada fiziki və hüquqi şəxslərdən depozitlərin və ya digər qaytarılan vəsaitlərin cəlb edilməsi və öz hesabına kreditlərin verilməsi, habelə müştərilərin tapşırığı ilə köçürmə və hesablaşma-kassa əməliyyatlarının məcmu halda həyata keçirilməsi, Nizamnaməsində, bank lisenziyasında və qanunvericiliklə nəzərdə tutulmuş digər fəaliyyət növləri ilə məşğul olur.

**3.2. Emitentin satılmış məhsullarının və ya göstərilmiş xidmətlərinin əsas kateqoriyalarını göstərərək emitentin əsas fəaliyyətlərinin təsviri:**

Emitentin strateji baxışı müstəsna xidmət, qabaqcıl məhsullar və müştəri yönümlü yanaşma ilə bankçılığın yeni üfüqlərinin kəşfinə çıxaraq və iqtisadi tərəqqiyə öz töhfəsini verərək Azərbaycanın aparıcı bankına çevrilməkdir.

Emitentin missiyası aşağıdakı kimidir:

- Müştəri yönümlü yanaşma, keyfiyyətli məhsullar və qabaqcıl texnologiyalar üzərindən müştərilərimizi yeni zirvələrə yüksəltmək;
- Ən bacarıqlı kadrları cəlb edib qoruyaraq və liderliyi gücləndirərək, inkişafı təmin edib, yeni istedadlar dövrünə təkan vermək;

- Bugünkü və gələcək nəsillər üçün Korporativ sosial məsuliyyət siyasəti çərçivəsində və ekoloji, sosial və korporativ idarəetmə yanaşmasına cavab verən təşəbbüslər vasitəsilə maliyyə dayanıqlılığını inkişaf etdirmək;
- Dayanıqlı biznes mühiti və təşkilati şəffaflığı təmin edərək yeni imkanlar üzərindən səhmdarlara ən yüksək dəyər qazandırmaq.

Azərbaycan Respublikasının qanunvericiliyi və bank lisenziyası ilə müəyyən edilən hüdudlarda Emitent aşağıdakı bank əməliyyatlarını həyata keçirmək hüququna malikdir:

- Tələbli və müddətli depozitlərin (əmanətlərin) və digər qaytarılan vəsaitlərin cəlb edilməsi;
- Kreditlərin (təminatlı və/və ya təminatsız) verilməsi, o cümlədən istehlak və ipoteka kreditləşdirilməsi, reqres hüququ ilə və ya belə hüquq olmadan faktorinq, forfeytinq, lizinq xidmətləri və digər kreditləşdirmə növləri;
- Fiziki və hüquqi şəxslərin hesablarının, o cümlədən bankların müxbir hesablarının açılması və aparılması;
- Klirinq, ödəniş xidmətləri, o cümlədən hesablaşma-kassa xidmətləri, ödəniş sistemlərinin təşkili, qiymətli kağızlar üzrə əməliyyatlardan irəli gələn ödənişlərin aparılması;
- Çek və veksellərin buraxılması;
- Öz hesabına və ya müştərilərin hesabına çeklərin, köçürmə veksellərinin, qiymətli metalların və qiymətli daşların, habelə öz hesabına valyuta və faiz dərəcələrinə aid törəmə maliyyə alətlərinin alqı-satqısı.
- Öz hesabına və ya müştərilərin hesabına valyuta mübadiləsi əməliyyatlarının həyata keçirilməsi
- Qiymətli metalların əmanətə cəlb edilməsi və yerləşdirilməsi;
- Öhdəliklərin icrasına təminatların, o cümlədən qarantiyaların verilməsi və öz hesabına və ya müştərilərin hesabına akkreditivlərin açılması;
- Maliyyə müşaviri, maliyyə agenti və ya məsləhətçisi xidmətlərinin göstərilməsi;
- Kreditlərə və kredit qabiliyyətinin yoxlanılmasına dair informasiya verilməsi və xidmətlər göstərilməsi;
- Sənədləri və qiymətliləri, o cümlədən pul vəsaitlərini saxlanca qəbul etmək (xüsusi otaqlarda və ya seyf qutularında saxlamaq);
- Qiymətlilərin, o cümlədən banknotların və sikkələrin inkasasiya edilməsi və göndərilməsi və qanunvericiliyə uyğun olaraq digər fəaliyyət növləri.
- Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi ilə qadağan olunmayan digər fəaliyyət növlərinin həyata keçirilməsi.

**3.3. Təqdim olunmuş yeni məhsul və ya xidmətlər barədə məlumat, onların inkişaf statusu:**
**"Azərbaycanın ən yaxşı KOS bankı":** "PAŞA Bank" ASC nüfuzlu beynəlxalq maliyyə nəşri olan "Euromoney" tərəfindən "Azərbaycanın ən yaxşı KOS bankı" nominasiyasında qalib elan

olunmuşdur. “PAŞA Bank” ASC kiçik və orta sahibkarlıq seqmentinin inkişafına verdiyi dəstəyə görə bu mükafata layiq görülmüşdür.

**“mPOS”:** Heç bir depozit və dövriyyə tələbi olmadan “mPOS” – mobil POS-terminal məhsulunu ilə sahibkarlar təmassız ödənişləri müvafiq satış nöqtələrində telefonla qəbul edə bilirlər. “mPOS”dan istifadə NFC funksiyasını dəstəkləyən “Android” əməliyyat sistemli mobil cihazlarda mümkündür. “mPOS” məhsulu bütün vergi ödəyiciləri üçün nəzərdə tutulmuşdur. Buraya kart əməliyyatlarını qəbul edən ticarət obyektləri, eyni zamanda bərbər, dərzi, aptek, kiosk və meyvə-tərəvəz mağazaları kimi kiçik bizneslər də daxildir.

**“Rəqəmsal biznes kartı”:** Fərdi sahibkarlar üçün nəzərdə tutulmuş rəqəmsal biznes kartı məhsulu təqdim edilmişdi. Özündə ənənəvi korporativ kartın funksiyalarını əks etdirir. Bu kartı müştərilər onlayn bankda və “PAŞA Biznes” mobil tətbiqində rahatlıqla istifadə edə bilərlər. Həmçinin “PAŞA Biznes” tətbiqində kartın PİN-kodunu asanlıqla təyin etmək, kartı “Apple Pay” və ya “Google Pay” elektron pul qabına etmək mümkündür. Bu məhsula əlavə edilən son funkiionallıq əsasında rəqəmsal biznes kartından “PAŞA Biznes” mobil tətbiqi vasitəsilə kartdan-karta pul köçürmələrini asanlıqla həyata keçirmək mümkündür. Rəqəmsal biznes kartı ilə ölkədaxili istənilən bank kartlarına köçürmə edə etmək olar.

**Maliyyə bələdçisi:** Fərdi sahibkarlar “Maliyyə bələdçisi” xidməti ilə vergi və büdcə ödənişlərini bir platformadan idarə edə, həmçinin vergi öhdəlikləri haqqında daim xəbərdar ola bilərlər. Əlavə olaraq vergi borcları, gecikmələri və qanundakı dəyişikliklər ilə bağlı öncədən bildiriş funksionallığı da məhsulun üstünlüklərindən biridir. “Maliyyə Bələdçisi" xidməti sahibkarlar üçün vergi ödənişlərini avtomatlaşdıran çevik bir bank məhsuludur. Məhsuldan yararlananlar vergi və büdcə ödənişlərini də sürətli və effektiv şəkildə həyata keçirə bilərlər. Xidmət üzrə aşağıdakı əməliyyatlar mümkündür:

- Vergi və büdcə öhdəliyinə uyğun olaraq vergi məbləğinin avtomatik hesablanması;
- Əsas məlumatların avtomatik doldurulması;
- Aylıq, rüblük və illik vergi və büdcə ödənişi imkanı;
- Vergi və büdcə ödənişlərinin vaxtında edilməsi üçün təqvim təminatı;
- Vergi və büdcə ödənişləri ilə bağlı öncədən xəbərdarlıq almaq imkanı;
- Heç bir əlavə tətbiq yükləmədən öz vergi hesabatlarını və bəyannamələrini hazırlamaq;

**“Tərəfdaşını yoxla” xidməti.** “PAŞA Bank” ASC-nin müştəriləri olan sahibkarlar yalnız VÖEN nömrələrini daxil etməklə istənilən tərəfdaş haqqında ətraflı məlumat əldə edə bilirlər.

“Tərəfdaşı yoxla” xidmətinin yoxlanılan şirkət haqqında ümumi, vergi, qalib olduğu dövlət tenderləri və məhkəmə işləri haqqında məlumat vermək kimi üstünlükləri vardır. Yoxlanış prosesi bir neçə mənbədən toplanır və çevik olaaq həyata keçirilir.

Xidmət “PAŞA Bank” müştəriləri üçün nəzərdə tutulub və mövcud və potensial tərəfdaşları ilə əməkdaşlıq zamanı qarşılaşa biləcək riskləri azaltmağa və bazarda mövcud mövqelərini möhkəmlətməyə şərait yaradır. Bu xidmətdən yararlanmaq üçün bankda hesab açmaqla müştəri olmaq kifayət edir.

**"Horizon" Üfüq və "Heritage" (İrs) kartları.** Bu kartlarla müştərilər "PAŞA Bank" ASC-nin "Özəl Bankçılıq" Şöbəsinin ("PASHA Private Banking") təqdim etdiyi bütün xidmətlərdən, sərvətin idarəolunması üzrə məsləhət xidmətindən, fərdi müştəri meneceri və diqər üstünlüklərdən istifadə etmək hüququna malikdirlər.
Həmçinin "Horizon" və "Heritage" kart sahibləri üçün "Miles and Smiles" proqramının iştirakçısı olaraq millər toplamaq, eyni zamanda "Fast Track", "Lounge Key", "Air Transfer" və digər premium səyahət üstünlüklərindən istifadə etmək mümkündür. Bu üstünlüklərdən yalnız kart sahibləri deyil, o cümlədən ailə üzvləri də istifadə edə bilərlər.
https://www.pashaprivate.az/az veb-saytı istifadəyə verilmişdr. Yeni veb-sayt üzərindən müştərilərə investisiyalar üzrə risk profillərini müəyyən etmək və uyğun yatırım alətlərini seçə bilmək imkanı təqdim olunub. Hazırda müştərilərə məhsul və xidmətlərdən faydalanmaq üçün qeydiyyat formasından onlayn müraciət imkanı da yaradılmışdır. "PAŞA Bank" ASC-nin "Özəl Bankçılıq" Şöbəsinin xidmətlərinə müştəriləri fərqli hiss etdirəcək fərdi yanaşma, bütün bank proseslərini idarə edəcək şəxsi müştəri meneceri, peşəkar maliyyə komandasından investisiyalar üzrə məsləhət xidməti daxildir. Həmçinin müştərilərə böyük partnyor şəbəkəsindən eksklüziv təkliflər, bir sıra bank xidmətlərində endirimli və ya ödənişsiz təkliflər təqdim olunur.
**"PAŞA Bank" ASC və "Türk hava yolları" ilə birgə əməkdaşlıq çərçivəsində emissiya edilən "Miles &Smiles"ödəniş kartları.**
"PAŞA Bank" ASC tərəfindən emissiya edilən "Miles&Smiles" ödəniş kartları 2019-cu ildə ölkədə ilk dəfə olaraq dünyanın bir çox ölkəsinə uçuşlar təşkil edən "Türk Hava Yolları" aviaşirkəti ilə ko-brendinq məhsulu kimi müştərilərin istifadəsinə verilmişdr. "PAŞA Bank" ASC bu məhsul vasitəsilə ölkədə nağdsız ödənişlərin təşviqinə öz dəstəyini göstərib.
"Miles&Smiles" ödəniş kartı sahiblərinə bir sıra üstünlüklər və imtiyazlar təklif olunur. Bu kart vasitəsilə ticarət və xidmət obyektlərində ödənişlər həyata keçirərək mil qazanmaq, toplanan milləri "Türk Hava Yolları"nın və "Star Alliance" üzvlərinin bir çox uçuş istiqamətləri üzrə aviabiletə çevirmək mümkündür. Millər həm ölkədaxili, həm də ölkəxarici ödənişlərdən toplanır. Həmçinin müştəri bankın partnyor şəbəkəsində "Miles&Smiles PAŞA Bank" kartı ilə ödəniş zamanı əlavə millər də qazana bilir. Müştərilər həmçinin proqrama illik abunə haqqı ilə qoşulmaq imkanına da malikdirlər.
Kartların əsas üstünlüklərinə aiddir:

- Yeni müştərilərə "xoş gəldin" milləri təqdim olunur;
- Ad günü, ondan əvvəlki və sonrakı günlərdə ikiqat millər qazanmaq olar;
- Çatbot konsyerj xidmətindən istifadə;
- Kartların onlayn sifarişi və ünvanadək pulsuz çatdırılması;
- Toplanan millərin "PAŞA Bank" mobil tətbiqi vasitəsilə asanlıqla izlənilməsi;
- Millərin "THY"nin mobil tətbiqindən rahatlıqla uçuş biletinə çevrilməsi;
- "Lounge Key" biznes zallarına pulsuz giriş imkanı;

PAŞA Bank

- Partnyorların 1000-dən çox satış nöqtəsində əlavə millər qazanmaq mümkündür;
- "Fast track" xidmətindən yararlanmaq olar;
- Səyahət sığortası;
- Pulsuz "Acıbadem" kartı ilə müxtəlif imtiyazlardan yararlanmaq mümkündür;
- İstənilən zaman bilet əldə etmək və milləri 3 ilə istifadə etmək imkanı təqdim olunur;
- Hava limanından pulsuz transfer xidməti və s.

**"Çıxarış və arayışların ünvana pulsuz çatdırılması":** "PAŞA Bank" mobil tətbiqi üzərindən sifariş verməklə müştərilər banka gəlmədən, vaxt itirmədən, daha sərfəli şərtlələ onlara məxsus hesablar üzrə çıxarış və müvafiq arayışların ünvana pulsuz çatdırılması xidmətindən yararlana bilərlər.

**"B2B" (biznesdən biznesə):** "B2B" (biznesdən biznesə) ödənişlər xidmətində yenilik tətbiq edilmişdir. Yenilikdən irəli gələrək müştərilərə birbaşa şirkətin "ERP" (Müəssisə Resurslarının Planlaşdırılması) sistemindən müvafiq ödənişləri icra etmək imkanı təqdim olunur. Müştərilər biznesdən biznesə ödənişlər xidməti vasitəsilə bank sisteminə daxil olmadan, birbaşa öz "ERP" sistemlərindən ödənişləri icra edə bilərlər. Bunun üçün şirkətin "ERP" sistemi Bank sistemi ilə "API" (Tətbiq Proqramlaşdırma İnterfeysi) üzərindən inteqrasiya edilir. Bu inteqrasiya sayəsində hesablar arası köçürmələrin, ölkədaxili və ölkəxarici ödənişlərin, vergi və büdcə ödənişlərinin, əməkhaqqı köçürmələrinin və valyuta mübadiləsi əməliyyatlarının "ERP" sistemindən birbaşa icrası mümkün olur. Müştərilər bu xidmət vasitəsilə onlayn bankda təkrar ödəniş kombinasiyasını yığmadan, vaxta qənaət edə, ödənişlərini rahat və təhlükəsiz şəkildə həyata keçirə bilərlər. Eyni zamanda, daha müasir texnologiyadan istifadə texniki xətaları da minimuma endirmək imkanı yaratmış olur.

**"Rəqəmsal biznes krediti":** Biznes kreditini banka gəlmədən, onlayn müraciət edərək girovsuz və növbə gözləmədən əldə etmək mümkündür. Kredit üzrə qərar hesab açmadan və mürəkkəb maliyyə hesabatları tələb olunmadan 1 iş günü ərzində bildirilir. Kredit, müştəri Bankın təklifini qəbul etdiyi gün müştərinin hesabına köçürülür.

### 3.4. Emitentin rəqabət apardığı əsas bazarların təsviri:

**Əməliyyat mühiti:** "S&P Global Ratings" reytinq agentliyinin proqnozuna əsasən Azərbaycan Respublikasında fəaliyyət göstərən bankların iqtisadi və əməliyyat şəraiti yüksək neft və qaz qiymətləri fonunda qeyri-neft iqtisadiyyatının dövlət xərcləri hesabına artımı ilə dəstəklənərək əlverişli olaraq qalacaqdır. 2024-2025-cü illərdə Azərbaycanda real ümumi daxili məhsulun 1.4% artacağı proqnozlaşdırılır.

**Bankların aktivlərinin riski:** "S&P Global Ratings" reytinq agentliyinin proqnozuna uyğun olaraq problemli kreditlər 2024-cü ilin sonuna qədər ümumi kreditlərin təxminən 4.5%-i kimi aşağı səviyyələrində sabit qalacaqdır. Problemli kreditlərin kredit itkisi ehtiyatları ilə əhatə olunması 100%-i keçməsi gözlənilir.

**Sektorun rentabelliyi və səmərəliliyi:** Bank sektorunun gəlirliliyinin sabit qalması, 2024-cü il üçün Azərbaycan Respublikasında fəaliyyət göstərən bankların xalis gəlirinin/maddi aktivlərinin 2,0% səviyyəsində qalacağını gözlənilir. Daha güclü xalis faiz marjası, artan komissiya gəlirləri və aşağı kredit-zərər ehtiyatı xərclərinin birləşməsi bankların əməliyyat gəlirlərini artıracaq. İqtisadiyyatın bərpası və bu seqmentlərdən güclü kredit tələbi fonunda marja cari hesabların yüksək payı və gəlirli korporativ sektora və kiçik və orta biznesə (KOB) verilən kreditlərin payının artması ilə dəstəklənməsi gözlənilir.

**Likvidlik:** Maliyyələşdirmə və likvidlik sabit olması proqrozlaşdırılır. Azərbaycan Respublikasında fəaliyyət göstərən banklar müştəri depozitləri ilə maliyyələşir ki, bu da 2023-ci ildə təxminən sabit 22 mlrd AZN qərarlaşmışdır. Azərbaycan Respublikasında fəaliyyət göstərən bankların topdansatış bazarından və transsərhəd maliyyələşdirmədən asılılığı məhduddur, onların yenidən maliyyələşdirmə riskləri isə nisbətən aşağıdır. Azərbaycanda xarici valyutada olan əmanətlərin xüsusi çəkisi 2023-ci ilin sonuna ümumi əmanətlərin 38%-enmişdir. Bundan əlavə, bank sektorunun aktivlərinin 30%-dən çoxu likvid formada olmuşdur. Aktivlər əsasən pul vəsaitləri və onların ekvivalentləri, bank depozitləri və dövlət borc qiymətli kağızlarına investisiyalardır. Bu aktivlər xarici şoklara qarşı güclü bufer təmin edir.

**Dövlət dəstəyi:** 2024-ci ilin iyununda suveren reytinqlərin "Baa3" investisiya dərəcəsi səviyyəsinə yüksəldilməsi fonunda xarici investorların ölkəyə və bank sektoruna investisiyalarını dəstəkləmək potensialının gücləndiyini göstərir. 2023-ci ilin sonunda Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) və Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən toplanmış ümumi ehtiyatlar ÜDM-in 90%-ni ötdüyünə görə dövlət iqtisadiyyata dəstək vermək üçün yaxşı mövqeyə malikdir.

Texnologiyanın sürətli inkişafı həm dünyada, həm də Azərbaycanda yeni innovativ şirkətlərin yaranmasına və xidmət sahələrində, xüsusən də bank sektorunda rəqabətin artmasına səbəb olur. Son illər Azərbaycanda startap mühitinin formalaşması və inkişafı maliyyə xidmətlərinin göstərilməsində yeni innovativ həllər həyata keçirəcək həm banklar, həm də qeyri-banklar tərəfindən yeni rəqiblərin formalaşması imkanlarını artırır. Məhsul və xidmətləri qismən və ya daha az rəqəmsallaşdırılan rəqib banklar növbəti dövr üçün strateji baxışlarına bu istiqamətdə inkişafı daxil ediblər. Bank sektorunda kapital tələbinin olması, maliyyə xidmətləri və situasiyaları təklif edən yeni şirkətlərin bazara, əsasən, mövcud banklarla əməkdaşlıq çərçivəsində daxil olacağı gözlənilir. Xarici bazarlarda uğur qazanan maliyyə texnologiyaları şirkətləri (Fintechlər) Azərbaycanın bank-maliyyə sektoruna daxil ola bilər. Emitentin Azarbaycan Respublikası ərazisində rəqabət apardığı əsas bankların siyahısına Korporativ və Kiçik və orta Biznes bankçılığı üzrə "Azarbaycan Beynalxalq Bankı", "Xalq Bank", "Access Bank", "Respublika Bank", "Yelo Bank", "UniBank" və digər bankları aid etmək olar.

**3.5. Emitentin rəqabət mövqeyinə dair bəyanatı olduğu halda onun əsaslandırması:** Mövcud deyil.

PAŞA Bank

4. **Digər təşkilatlarda iştirak**

**4.1.Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri:**

- **"PAŞA Yatirim Bankası" Anonim Şirkəti**. Emitentin "PAŞA Yatirim Bankası" Anonim Şirkətinin nizamnamə kapitalında payı 28.2093% təşkil edir.
Ünvan: Sultan Selim məhəlləsi, Hümeyra küçəsi, PASHA Plaza №:2/7 34415 Kağıthane / İstanbul. "PAŞA Yatirim Bankası" Anonim Şirkəti" tərəfindən müvafiq lisenziya əsasında göstərilən bank xidmətlərinin siyahısı aşağıdakı kimidir (lakin bununla məhdudlaşmır):
    - Hər növ nağd və nağdsız kreditlərin verilməsi;
    - Nağd və hesabdan ödəniş, pul köçürmə əməliyyatları, inkassasiya xidmətləri;
    - Çeklərin və digər veksellərin tərtib edilməsi üzrə əməliyyatlar;
    - Nağd pul da daxil olmaqla valyuta əməliyyatları;
    - Xarici valyutaya əsaslanan opsion müqavilələrinin ticarəti və müvafiq xarici valyutada opsion müqavilələrinin brokerliyi;
    - Xarici valyutaya əsaslanan fyuçers müqavilələrinin ticarəti və müvafiq xarici valyuta fyuçers müqavilələrinin brokerliyi;
    - Qarantiya və digər üçüncü şəxslərin xeyrinə öhdəlik götürməklə bağlı əməliyyatlar;
    - İnvestisiya məsləhət xidmətləri;
    - Faktorinq və forfeytinq əməliyyatları;
    - Banklararası bazarda pul alqı -satqısı üzrə vasitəçilik əməliyyatları;
    - Maliyyə lizinqi əməliyyatları;
    - Sığorta agenti fəaliyyəti.

- **"PASHA Bank Georgia" Səhmdar Cəmiyyəti.** Emitentin Cəmiyyətin nizamnamə kapitalında payı 85.0588% təşkil edir.
Ünvan: 37M, Ilia Chavchavadze prospekti, 0179, Tbilisi, Gürcüstan. "PASHA Bank Goergia" Səhmdar Cəmiyyəti tərəfindən müvafiq lisenziya əsasında göstərilən bank xidmətlərinin siyahısı aşağıdakı kimidir (lakin bununla məhdudlaşmır):
    - Faizli və ya faizsiz bank əmanətlərinin (tələbli əmanət, müddətli əmanət və digər növlər) və digər geriödənilən ödəniş vəsaitlərinin qəbul edilməsi;
    - İstehlak, ipoteka, təminatsız və digər növ kreditlərin verilməsi;
    - Ticarət əqdlərinin maliyyələşdirilməsi, reqress hüququ olan və ya olmadan faktorinq, akkreditiv əməliyyatları, qarantiyaların verilməsi;
    - Törəmə maliyyə alətləri üzrə əqdlər bağlamaq, maliyyə sənədlərinin (çek, depozit sertifikatı), xarici valyutanın və faiz alətlərinin alqı-satqısı;
    - Nağd və nağdsız əməliyyatların icrası;

- Ödəniş alətlərinin (ödəniş kartları, çeklər, veksellər də daxil olmaqla) emissiyası və onların dövriyyəsinin təşkili.

- **"PAŞA Technology" MMC** (VÖEN:1404290674). Emitentin Cəmiyyətin nizamnamə kapitalında payı 8,09 % təşkil edir.
Ünvan: AZ1010, Bakı şəhəri, Nəsimi rayonu,Neftçilər prospekti, ev 153. "PAŞA Technology" MMC tərəfindən İT infrastrukturu üzrə və son istifadəçi üçün dəstək xidmətləri göstərilir.
- **"Azərbaycan Kredit Bürosu" MMC** (VÖEN: 1305349901) Emitentin Cəmiyyətin nizamnamə kapitalında payı 12.5 % təşkil edir.
Ünvan: AZ1065, Bakı şəhəri, Yasamal rayonu, Cəfər Cabbarlı küçəsi, 40 C. Cəmiyyət "Kredit Büroları" haqqında Azərbaycan Respublikasının Qanunu ilə nəzərdə tutulmuş fəaliyyətlə məşğul olmaq məqsədilə yaradılmışdır. "Azərbaycan Kredit Bürosu" MMC nizamnaməsinə əsaasən, aşağıdakı fəaliyyət növlərini həyata keçirir:
  - Kredit tarixçəsi subyektinin kredit tarixçəsini təhlil edən məlumatların toplanması, saxlanılması, təhlil edilməsi və kredit hesabatlarının verilməsi;
  - Kredit tarixçələrinin tərtib edilməsi və onlardan istifadənin avtomatlaşdırılması üçün xüsusi proqram təminatının hazırlanması və realizə edilməsi;
  - Kredit bürolarının fəaliyyətinə aid olan xüsusi ədəbiyyatın və digər məlumat materiallarının realizə edilməsi;
  - Kredit tarixçələrinin tərtib edilməsi və onlardan istifadə ilə bağlı məsləhət xidmətlərinin göstərilməsi;
  - Kredit tarixçəsi subyektlərinin ödəmə qabiliyyətinin və borc öhdəliklərinin icra intizamının qiymətləndirilməsi və kredit tarixçəsinin subyektlərinə fərdi kredit reytinqlərinin verilməsi;
  - Statistik tədqiqatların aparılması;

Kredit bürosunun əsas fəaliyyətini dəstəkləyən digər fəaliyyət.

- **"Smilepay" MMC** (VÖEN:13069117601). Emitentin Cəmiyyətin nizamnamə kapitalında payı 75 % təşkil edir.
Ünvan: AZ1012, Bakı şəhəri, Yasamal rayonu, Həsənbəy Zərdabi prospekti ev 92A, mənzil 298
Cəmiyyətin əsas fəaliyyəti rəqəmsal texnologiyalara əsaslanmaqla innovativ ödəniş mexanizmlərinin icrasınq dəstək göstərməkdir.

**4.2.Emitentin qrupdakı digər müəssisələrdən asılı olduğu təqdirdə bu barədə məlumat.**

Belə bir hal mövcud deyil.

5. **Tendensiyalar barədə məlumat**

**5.1. Audit edilmiş maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən emitentin emissiya prospektində mənfi dəyişikliyin olub-olmaması barədə məlumat:** Mənfi dəyişiklik baş verməyib.

**5.2. Emitentin fəaliyyətinə cari maliyyə ili dövründə təsir etmə ehtimalı olan məlum tendensiyalar, qeyri-müəyyənliklər, tələblər, öhdəliklər və ya hadisələr barədə məlumat:**

Emitent fəaliyyətini Azərbaycan Respublikası, Türkiyə və Gürcüstan ərazilərində göstərməkdədir. Türkiyə və Gürcüstan Respublikalarında payları Emitentə məxsus olan törəmə şirkətlərin (bankların) mövcudluğu "PAŞA Bank" ASC-yə xarici bazara çevik çıxış imkanını təqdim edir və xarici bazar ekspertizasından yararlanmağa imkan yaradır.
Belə ki, beynəlxalq reytinq agentlikləri tərəfindən Azərbaycan Respublikasının verilən kredit reytinqi BB+/BB+/Ba1 olaraq qeyd olunmuşdur. Reytinq güclü xarici balans hesabatı, Azərbaycan Respublikasına qonşu ölkələr qrupunda ən aşağı dövlət borcu və Dövlət Neft Fondunun aktivlərindən maliyyələşmə çevikliyi ilə dəstəklənir.
2023-cü ildə ölkə üzrə orta inflyasiya 9%-ə qədər azalaraq Azərbaycan Respublikasının güclü manat və beynəlxalq ərzaq qiymətlərinin aşağı düşməsi ilə dəstəklənmişdır. Beynəlxalq Kredit Reytinq agentlikləri tərəfindən inflasiyanın 2024-cü ildə 4.5%-ə qədər azalacağı proqnozlaşdırılmışdır. İllik inflyasiya Azərbaycan Respublikasının Mərkəzi Bankının müəyyən etdiyi hədəf diapazonuna (4% ± 2 faiz dərəcəsi) daxil olduğu üçün Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən 2023-cü ildən etibarən uçot faiz dərəcəsi azaldılaraq 7.75%-ə, 2024-cü il may ayından etibarən isə 7.25%- ə qədər endirmişdir.
Bank sektoru 2023-cü ildə güclənmişdir. Qeyri-işlək kredit əmsalı 2023-cü ilin sonunda rekord minimum həddə- 1.8%-ə qədər azalmışdır (2022-ci ilin sonu: 2,9%). Kapitallaşma azalsa da, adekvat olaraq qalmışdır. 2023-cü ilin sonunda Bank sektorunun 1-ci dərəcəli kapital əmsalı 13.5% (2022-ci ilin sonunda 15.2%) olmuşdur. Bank Sektoru üzrə gəlirlilik artmışdır. Artım yüksək aktiv vəsait gəlirliliyi və mülayim maliyyələşdirmə xərcləri ilə dəstəklənən depozit bazasında cari hesabların saxlanılmasından təsirlənmişdir.
Qeyd olunmuş tendensiyalar Bankın strategiyada çevik şəkildə əks olunduğu üçün 2023-cü ildə S&P Global Rating Azərbaycanda möhkəm korporativ biznes françayzını, böyük likvidlik buferlərini və növbəti 12 ay ərzində kredit profilini dəstəkləyən sabit müştəri depozitlərini nəzərə alaraq, Bankın uzunmüddətli reytinqini BB- səviyyəsinə (yəni bir pillə) qaldırmışdır. "PAŞA Bank" ASC-nin 2023-cü ildə biznes kreditlərinin bazar payının 20.5%, depozit portfelinin 20.1%, cəmi aktivlərin 17.6% və ümumi kapitalın 14% təşkil etməsini nəzərə alaraq ötən illərdə olduğu kimi sistem əhəmiyyətli bank olmuşdur.

6. **Gəlir proqnozu**

Mövcud deyil.

7. **Emitentin idarəetmə və nəzarət orqanları**

**Emitentin idarəetmə və nəzarət orqanlarının hər bir üzvü barədə aşağıdakı məlumatlar:**

7.1. Emitentin ali idarəetmə orqanı Səhmdarların Ümumi Yığıncağıdır. Səhmdarların Ümumi Yığıncağı illik və növbədənkənar keçilir. Emitentin səhmdarlarının ümumi sayı 4-dür.

1) "PAŞA Holding" MMC

Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən təsis edilən hüquqi şəxs. Səhmlərin sayı 6049, nizamnamə kapitalında olan faiz nisbəti- 56,8195 %;

2) "Bless" MMC

Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən təsis edilən hüquqi şəxs. Səhmlərin sayı 3000, nizamnamə kapitalında olan faiz nisbəti- 28,1796 %;

3) Paşayev Arif Mir Cəlal oğlu

Azərbaycan Respublikasının vətəndaşı, səhmlərin sayı 1064, nizamnamə kapitalında olan faiz nisbəti 9,9944 %;

4) Paşayev Mir Camal Hafiz oğlu

Azərbaycan Respublikasının vətəndaşı, səhmlərin sayı 533, nizamnamə kapitalında olan faiz nisbəti 5,0066%.

Səhmdarların Ümumi Yığıncağının funksiyaları:

- Bankın nizamnaməsini qəbul etmək, nizamnaməyə əlavə və dəyişikliklər etmək;
- Bankın xalis mənfəətindən dividend almaq;
- Nizamnamə kapitalının artırılması və azaldılması barədə qərarlar qəbul etmək, bank səhmlərinin buraxılması müddətlərini və şərtlərini müəyyənləşdirmək, habelə bankda mühüm iştirak payının əldə edilməsinə razılıq vermək;
- Bankın satılması, yenidən təşkili və ləğvi barəsində qərarlar qəbul etmək və s.

7.2. Müşahidə Şurası barədə məlumat

| № | Adı | Vəzifəsi | Funksiyaları |
|---|---|---|---|

| | | | |
|---|---|---|---|
| 1 | Paşayev Mir Camal Hafiz oğlu | Müşahidə Şurasının sədri | Müşahidə Şurasının işini təşkil etmək, iclaslarını çağırmaq və iclaslarda sədrlik etmək, Müşahidə Şurasının iclas protokollarını və qəbul olunmuş qərarlarını imzalamaq, Müşahidə Şurasının üzvü kimi Bankın idarə edilməsinə və fəaliyyətinə nəzarətin həyata keçirməsində iştirak etmək, bankın İdarə Heyətindən hesabat almaq, kapital ehtiyatlarının yaradılması haqqında qərarların, Bankın fəaliyyətinin kompleks və ya ayrı-ayrı sahələrinin yoxlanması barədə qərarların qəbul edilməsində iştirak etmək və s. |
| 2 | Vadim Şneyer Yakovleviç | Müşahidə Şurasının üzvü | Müşahidə Şurasının üzvü kimi Bankın idarə edilməsinə və fəaliyyətinə nəzarətin həyata keçirməsində iştirak etmək, bankın İdarə Heyətindən hesabat almaq, kapital ehtiyatları yaradılması haqqında qərarların, Bankın fəaliyyətinin kompleks və ya ayrı-ayrı sahələrinin yoxlanması barədə qərarların qəbul edilməsində iştirak etmək və s. |
| 3 | Axundov Fərid Azər oğlu | Müşahidə Şurasının üzvü | Müşahidə Şurasının üzvü kimi Bankın idarə edilməsinə və fəaliyyətinə nəzarətin həyata keçirməsində iştirak etmək, bankın İdarə Heyətindən hesabat almaq, kapital ehtiyatları yaradılması haqqında qərarların, Bankın fəaliyyətinin kompleks və ya ayrı-ayrı sahələrinin yoxlanması barədə qərarların qəbul edilməsində iştirak etmək və s. |
| 4 | Sərdarlı Nəriman Həsən | Müşahidə Şurasının | Müşahidə Şurasının üzvü kimi Bankın |

| | | | |
|---|---|---|---|
| | oğlu | üzvü | idarə edilməsinə və fəaliyyətinə nəzarətin həyata keçirməsində iştirak etmək, bankın İdarə Heyətindən hesabat almaq, kapital ehtiyatları yaradılması haqqında qərarların, Bankın fəaliyyətinin kompleks və ya ayrı-ayrı sahələrinin yoxlanması barədə qərarların qəbul edilməsində iştirak etmək və s. |
| 5 | Məmmədov Şahin Çingiz oğlu | Müşahidə Şurasının üzvü | Müşahidə Şurasının üzvü kimi Bankın idarə edilməsinə və fəaliyyətinə nəzarətin həyata keçirməsində iştirak etmək, bankın İdarə Heyətindən hesabat almaq, kapital ehtiyatları yaradılması haqqında qərarların, Bankın fəaliyyətinin kompleks və ya ayrı-ayrı sahələrinin yoxlanması barədə qərarların qəbul edilməsində iştirak etmək və s. |

7.3. İdarə Heyəti haqqında məlumat

| **№** | **Adı** | **Vəzifəsi** | **Funksiyaları** |
|---|---|---|---|
| 1 | Quliyev Cavid Həsən oğlu | İdarə Heyətinin Sədri | Bankın qanuni təmsilçisi funksiyasını icra etmək, Bankın adından qanunla qadağan edilməyən əqd və sazişlər bağlamaq, Bankın fəaliyyətinə cari rəhbərlik etmək, işçilərin işə qəbul və işdən azad olunması ilə bağlı qərarlar qəbul etmək, Bankın nümayəndəlik, filial, şöbə (o cümlədən, mübadilə şöbələri), habelə qanunvericiliklə müəyyən edilən qaydada törəmə müəssisələrinin inzibati və maliyyə |

| | | | |
|---|---|---|---|
| | | | təsərrüfat fəaliyyətinə nəzarət işini təşkil etmək, Bankın Bankın maliyyə hesabatlarını və digər açıqlanan məlumatları imzalamaq və s. |
| 2 | Nağıyev Bəhruz Şahin oğlu | İdarə Heyətinin Sədrinin müavini | Kurasiya etdiyi Bankın müvafiq struktur bölmələrin fəaliyyətinin səmərəli təşkil olunmasını, fəaliyyət planlarının hazırlanmasını və yerinə yetirilməsini təşkil və təmin etmək, nəzarət etdiyi sahələr üzrə Bankın idarə olunmasını və fəaliyyətini, o cümlədən müvafiq planların həyata keçirilməsini təmin etmək və s |
| 3 | Orucov Calal Cümşüd oğlu | İdarə Heyətinin üzvü | Kurasiya etdiyi Bankın müvafiq struktur bölmələrin fəaliyyətinin səmərəli təşkil olunmasını, fəaliyyət planlarının hazırlanmasını və yerinə yetirilməsini təşkil və təmin etmək, nəzarət etdiyi sahələr üzrə Bankın idarə olunmasını və fəaliyyətini, o cümlədən müvafiq planların həyata keçirilməsini təmin etmək və s |
| 4 | Süleymanov Murad Hüseyn oğlu | İdarə Heyətinin üzvü | Bankın maliyyə funksiyasının fəaliyyətinə birbaşa nəzarəti (kuratorluğu) həyata keçirmək, maliyyə idarəetməsinin və hesabatlığının metodlarını, daxili prosedurlarını, o cümlədən rəhbərliyə təqdim olunan hesabatları və maliyyə nəzarəti mexanizmlərini əhatə edən uçot siyasəti hazırlamaq, bankın xəzinədarlıq, aktiv və passivlərin idarə edilməsi, mühasibat, hesabatlıq və maliyyə nəzarəti funksiyalarını yerinə yetirən struktur bölmələrin işinin lazımi qaydada təşkil olunmasını təmin etmək və s. |

| | | | |
|---|---|---|---|
